**Saxlama müddəti və qaydası**
Anbarda ağzı açılmamış orijinal qablaşdırmada, sərin və quru şəraitdə, donmadan qorumaqla istehsal tarixindən başlayaraq 6 ay müddətində saxlanıla bilər. Ağzı açılmış qablardakı məhsul bir həftə ərzində istifadə olunmalıdır.

**Xəbərdarlıqlar**
• ağzı açılmış qablardakı məhsulu bir həftə ərzində istifadə edin;
• istifadə zamanı xüsusi paltar,qoruyucu əlcək, eynək və maska geyin;
• məhsul gözə və ya dəriyə düşərsə,dərhal su ilə yuyun, udularsa həkimə müraciət edin;
• ərzaq məhsullarından və uşaqlardan uzaq saxlayın;
• yuxarıdakı göstəricilər $+23^{0}C \pm 2^{\circ}C$ temperatur və 50%±5% rütubətli şəraitdə aparılan sınaqlar nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

**Zəmanət və texniki dəstək**
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• "Mətanət A" şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə "Mətanət A" şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün "Mətanət A" şirkətinə müraciət edin!



# İzoKontakt® 2

**TEZ QURUYAN TƏMİR, MONTAJ QARIŞIĞI**




**Məhsul haqqında**
Sement və qum tərkibli, su sızıntılarının izolyasiyasında, montaj və təmir işlərində istifadə olunan, yapışma müqavimətini artıran, su ilə qarışdırıldığı zaman sürətlə genişlənərək sərtləşən, istifadəyə hazır qarışıqdır.

**İstifadə sahələri**
Bu təmir, montaj qarışığından:
• daxili və xarici məkanlarda;
• döşəmə və divarlarda;
• genişlənməyə meylli olmayan çatların təmirində;
• su sızan yerlərin izolyasiyasında;
• boruların izolyasiyasında;
• beton səthlərin təmirində;
• qəlib içi qopmuş dəmir boşluqların doldurulmasında;
• betonun kənar və künclərinin oval şəklə salınmasında və aralıqların təmir edilməsində;
• metal anker boltlarının və alətlərinin bərkidilməsində istifadə olunur.

**Üstünlükləri**
• birkomponentlidir;
• yalnız su ilə qarışdırılır;
• sürətlə sərtləşərək su sızıntıları üçün maneə əmələ gətirir;
• istifadəsi asandır;
• genişlənərkən su keçirməyin qarşısını alır;
• 15 dəqiqə sonra üzərinə digər məhsullar çəkilə bilər;
• tərkibində xlor olmadığı üçün polad konstruksiyaların korroziyasına səbəb olmur;
• içməli su anbarlarında etibarlı şəkildə istifadə oluna bilər.

**İstifadə qaydaları**
***Səthin hazırlanması.*** İstifadə olunacaq səthlərin sağlam, dözümlü, tozsuz, təmiz və ölçülərinin düzgün olmasına diqqət yetirməli, səth yapışma müqavimətini zəiflədən bütün növ yağ, pas və parafin qalıqlarından, boya və nəm saxlayan maddələrdən tamamilə təmizlənməli və xırda qırıntılar qalmamalıdır. Yaranmış boşluqlar və çatlar 20 mm dərinliyində və enində, kənarları dik olaraq kəsilməlidir. Boşluqların V şəklində, künclərin isə sərt uclu kəsilməsi yolverilməzdir.

***Qarışığın hazırlanması.*** 3 dəqiqə ərzində istifadə olunacaq miqdarda məhsulu təmiz bir qabın içinə qoyaraq lazımi miqdarda su əlavə edin, münasib

əlcək geyərək 30 saniyədən çox olmamaq şərti ilə qarışdırın. 1 kq İzoKontakt 2 məhsuluna 0,23 litr təmiz su əlavə edərək qarışdırın (Su nisbəti havanın temperaturundan asılı olaraq dəyişə bilər).

***Tətbiqi.*** Hazırlanmış qarışıq ankraj işlərində istifadə olunur. Ankraj boşluğu yetərincə İzoKontakt 2 məhsulu ilə doldurulmalı və ankraj edilən cihaz ani olaraq şaquli istiqamətdə ankraj boşluğuna yerləşdirilməlidir. 30 dəqiqə ərzində İzoKontakt 2 məhsulunun səthi nəm saxlanılmalıdır.

***Tövsiyələr.*** Soyuq havada isti və ya ılıq su istifadə olunmalıdır. Qarışığa heç bir digər kimyəvi maddə əlavə edilməməlidir. İstifadə olunacaq səthin və mühitin temperaturu +5$^0$C-dən aşağıdırsa və ya +32$^0$C-dən yuxarıdırsa, lazımi temperatur təmin olunmalıdır.
İstifadə zamanı suyun yüksək sürətlə ayrılması nəticəsində məhsul sürətlə sərtləşir. Buna görə də tətbiq sahəsi 15 dəqiqə müddətində nəm saxlanılmalıdır. Quru və əmici səthlərdə bu müddət 30 dəqiqə olmalıdır.
Xüsusi sement əsaslı sistemlərin istifadə və reaksiya müddəti mühit və səthin temperaturuna, havadakı rütubət nisbətinə qarşı həssasdır. Temperatur aşağı olduqda reaksiyanın sürəti azalır, bu da qabda hazır qarışığın istifadə ömrünü və işin görülmə müddətini uzadır. Temperatur yüksək olduqda, reaksiyanın sürəti artır və yuxarıda adları çəkilən digər müddətlər azalır. Məhsulun nəmi özündə saxlaması və maksimum effekt əldə edilməsi üçün temperaturun məsləhət görülən dərəcədən aşağı düşməməsinə diqqət yetirilməlidir.
Soyuq havalarda məhsulun istifadə müddətini uzatmaq üçün qablaşdırmalar +20$^0$C - +25$^0$C temperaturda istifadəyə hazır vəziyyətə gətirilməli və qarışıq yalnız isti su ilə hazırlanmalıdır. İstifadədən sonra bütün alətlər və ləvazimatlar ılıq su ilə təmizlənməlidir. İzoKontakt 2 sərtləşdikdən sonra mexaniki yolla səthdən təmizlənə bilər.

## Texniki göstəricilər

| | |
|---|---|
| **Məhsulun tərkibi:** | xüsusi sement və kimyəvi əlavələr |
| **İstifadə temperaturu** | +5$^0$ C – +32$^0$ C |
| **Su / toz nisbəti** | 1,2 litr su / 5 kq quru qarışıq |
| **Səthə çəkilmə müddəti** | 3,0-5,0 dəqiqə |
| **Təzyiqə dözümlülüyü:**<br>• *7 gündən sonra* | ≥1,5 N/mm² |
| **Qarışma nisbəti** | 1,2-1,4 litr maye / 5 kq toz |
| **Qablaşdırma** | 1 qatı polietilendən ibarət olan 5 kq-lıq laminasıyalı paketlərdə |

## Sərfiyyat
Su sızan yerlərin ölçüsündən asılı olaraq dəyişə bilər.

## Saxlama müddəti və qaydası
Anbarda saxlanılma şərtlərinə düzgün əməl edilərsə, istehsal tarixindən başlayaraq 6 ay müddətində saxlanıla bilər. Ağzı açılmış qablardakı məhsul bir həftə ərzində istifadə olunmalıdır.

## Xəbərdarlıqlar
• İzoKontakt 2-ni ağzı açılmamış orijinal qablaşdırmada, sərin və quru şəraitdə, donmadan qorumaqla saxlayın;
• ağzı açılmış qablardakı məhsulu bir həftə ərzində istifadə edin;
• istifadə zamanı xüsusi paltar, qoruyucu əlcək, eynək və maska geyin;
• məhsul gözə və ya dəriyə düşərsə, dərhal su ilə yuyun, udularsa həkimə müraciət edin;
• ərzaq məhsullarından və uşaqlardan uzaq saxlayın;
• yuxarıdakı göstəricilər +23$^0$C±2$^0$C temperatur və 50%±5% rütubətli şəraitdə aparılan sınaqlar nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

## Zəmanət və texniki dəstək
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!